“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində xaricdə doktorantura təhsilinin həyata keçirilməsi və maliyyələşmə prosesi – iş axışı

(Təhsil Nazirliyi: Nazirlik; Dövlət Neft Fondu: DNF; yerli ali təhsil müəssisəsi: ATM; Dövlət Proqramı İdarəetmə Qrupu: DPİQ)

1
Namizədlər Dövlət Proqramı çərçivəsində xaricdə doktorantura təhsili üçün qaydalara uyğun olaraq elanın tələbləri üzrə müsabiqədə iştirak edir;

2
Namizədlər DPİQ tərəfindən təşkil edilən müsabiqə nəticəsində Dövlət Proqramı çərçivəsində təhsil almaq hüququ qazanır;

3
Proqram iştirakçısı olaraq seçilmiş namizədlərin siyahısı Nazirliyin əmri ilə təsdiq edilir;

Proqram iştirakçıları ilə Nazirlik tərəfindən təsdiq edilmiş üçtərəfli müqavilə bağlanılır;

5
Üçtərəfli müqavilə imzalandıqdan sonra Nazirlik (DPİQ) tərəfindən maliyyələşmənin həyata keçirilməsi üçün proqram iştirakçılarının müvafiq sənədləri hazırlanır;

6
Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi üçün Nazirlik (DPİQ) tərəfindən DNF-ə vəsaitlərin sifarişi təqdim edilir;

7
Nazirlik (DPİQ) proqram iştirakçılarının yaşayış xərclərinin köçürüləcəyi "Dövlət Proqramı 2019-2023" bank kartlarını müvafiq banka sifariş verir;

8
Müvafiq vəsaitlər DNF tərəfindən İdarəetmə Qrupunun xəzinə hesabına köçürülür;

9
Nazirliyin (DPİQ) müvafiq əmri ilə həmin vəsaitlər Proqram iştirakçılarının müvafiq kart hesablarına köçürülür;

10
DPİQ tərəfindən müvafiq bank kartları proqram iştirakçılarına təqdim edilir;

11
Digər ödənişlər (təhsil haqqı, sığorta, yol xərci və s.) eyni ardıcıllıqla həyata keçirilir;

12
Proqram iştirakçısı üçtərəfli müqavilə öhdəlikləri üzrə tədris ili ərzində iş planının yerinə yetirilməsi barədə elmi rəhbərinin rəyini DPİQ-ə təqdim edir;

13
Proqram iştirakçısının ATM-də doktorantura səviyyəsi üzrə iş planının yerinə yetirilməsinə uyğun olaraq onun təhsilinin maliyyələşdirilməsi DPİQ tərəfindən tənzimlənir;

14
Üçtərəfli müqavilə iştirakçısı yerli ATM öhdəliklərinə uyğun olaraq proqram iştirakçısı ilə iş aparır;

15
Nazirlik (DPİQ) ildə bir neçə dəfə Proqramın icrasına dair hesabatı aidiyyəti dövlət qurumlarına təqdim edir;

16
Nazirlik (DPİQ) ildə bir dəfə Proqramın icrasına dair illik hesabatı Azərbacan Respublikasının Prezidentinə təqdim edir.